**Respublika.** - 2024.- 20 noyabr. - № 255. - S. 3,12.

# Ağdam: Ümidin, inamın, arzuların şəhəri

**Salman Alıoğlu**

***Prezident İlham Əliyevin təşəbbüsü ilə Ağdam "Ağıllı şəhər" layihəsi əsasında yeni və modern üslubda inşa edilir, regionun ən gözəl şəhərlərindən birinə çevrilir. Yaşayış məhəllələri ilə yanaşı, şəhərin mərkəzində həm də tarixi-mədəni ərazi salınacaq və 22,5 hektarlıq ərazini əhatə edən bu məkanda Pənahəli xanın İmarət kompleksi, Çörək muzeyi, Dram teatrı, İşğal və Zəfər muzeyləri kompleksi olacaq. Təzədən doğulan şəhərin quruculuq üfüqləri və şəhərsalma cizgiləri onu göstərir ki, elə bir Ağdam qurulur ki, dünyada onun bənzəri olmayacaq.***

## Ağdam ekosidə məruz qalıb

Ermənistanın hərbi təcavüzü nəticəsində Ağdam bölgədəki çoxmədəniyyətli şəhərlərdən biri kimi tarixin səhifəsindən silinib. Ağdam təbii sərvətlərlə zəngindir. Rayon Kiçik Qafqaz dağları ilə Kür-Araz ovalığının təmas zonasında yerləşir. Şahbulaq silsiləsində yerləşən Çobandağın zirvəsində qədim bir tikili var. Qarabağ xanlığı dönəmində yadellilərin hücumları zamanı həmin yerdən gözətçi məntəqəsi kimi istifadə edilib. İşğaldan azad edilmiş Ağdam - hər tərəfi tar-mar edilmiş, heç bir həyat əlaməti olmayan, yerlə-yeksan olmuş bir şəhər. Burada həyata keçirilən vəhşiliklər dünya mədəniyyət tarixinə bir zülm dövrü kimi düşüb. Düşmənin viran qoyduğu, altını üstünə çevirdiyi Ağdam Birinci Qarabağ müharibəsində Ermənistan tərəfindən ekosidə məruz qalıb. Bu qədim şəhər etnik nifrət zəminində və məqsədli şəkildə xarabalığa çevrilib, təbiətinə, tarixi abidələrinə amansız və qəddar münasibət göstərilib. Dünyada olan 10 ruhlar şəhərindən biridir. Vaxtilə bu şəhərdə 40 min nəfərə yaxın rus, erməni, gürcü, Ukrayna, Belarus və digər xalqların nümayəndələri azərbaycanlılarla birlikdə mehriban şəraitdə yaşayıblar. İşğalçılar böyük və qədim bir şəhəri xarabalığa çeviriblər. Nə qədər canlı qüvvəsi, hərbi texnikaları olsa da işğalçı Ermənistan ötən əsrin 80-ci illərində Qarabağın ən abad və ən varlı şəhərini ələ keçirə bilmirdi. Bu istiqamətdə şiddətli döyüşlər gedirdi, haylar qədim türk dilində kiçik qala mənasını daşıyan Ağdamı sarsıda və qorxuda bilmirdilər.

Ağdamın düşmən tərəfindən bombardman edilməsinin statistikası çox faciəlidir. Tək bir gecədə düşmən Ağdam şəhərinə 200-dən çox mərmi atmışdı, dinc insanlar həlak olsalar da, şəhər dağılsa da, heç kəs öz evini tərk etmirdi. Ağdam bir ildən artıq bombalar altında yaşamışdı. Ağdam Qarabağın açarı idi, ona görə də düşmən havadarları ilə birlikdə böyük bir xəyanətə əl atdı. Ağdam özünümüdafiə dəstələrinin komandirləri terror nəticəsində bir-bir aradan götürüldü, buna baxmayaraq, şəhərin müdafiəçiləri sonadək döyüşdülər. Birinci və İkinci Qarabağ müharibələrində Ağdam camaatı dəhşətli günlər və ağrılar yaşayıb. Şəhid xəbəri iki-üç evdən birinin qapısını döyüb, bir ailədən iki nəfər Vətən müharibəsində iştirak edib, torpaqların azad edilməsi üçün şəhidliyi seçib. Qeyd edək ki, Birinci Qarabağ müharibəsi dövründə Ağdamda iki Şəhidlər Xiyabanı salınmışdı. Biri şəhərin yuxarı başında, digəri isə Uzun dərə adlanan ərazidə idi. Xocalı faciəsi qurbanlarının çoxu da burada dəfn edilmişdi. Ermənilər həmin xiyabanları qəddarlıq və vəhşiliklə dağıdıblar. Belə vandallıq və etnik nifrət dünyanın heç bir yerində görünməyib. Ağdam ötən əsrin 80-ci illərində Qarabağda baş verən hadisələrin episentrinə çevrilmişdi. 1988-ci ilin sonlarında Ermənistandan və keçmiş Dağlıq Qarabağdan didərgin salınan on minlərlə azərbaycanlı Ağdam rayonuna pənah gətirmişdi, ağdamlılar qışın sazağında ermənilərin təcavüzü nəticəsində isti evlərindən didərgin salınan qardaş və bacılarımıza qucaq açdılar, son tikələrini onlarla bölüşdülər. Ağdamda ermənilərin müharibə cinayətləri ölçüyəgəlməzdir, bu dağıntılar ermənilərin qorxulu və təhlükəli mahiyyətindən xəbər verir, azğın düşmən Ağdamda Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçirib.

## Ağdam şəhid vermədən, bir güllə atılmadan azad olundu

Otuz ilə yaxın Ermənistanın işğalı və hərbi təcavüzü altında qalan, erməni faşistləri tərəfindən talan edilən, yağmalanan, dağıdılan qədim yurd yerimiz Ağdam azad edildikdən sonra bu torpaqlara həyat qayıdır, quruculuq, dirçəliş, bərpa sürətlə aparılır. İşğaldan azad olunmasından dörd il keçməsinə baxmayaraq, düşmənin Ağdamda yaratdığı xarabalıqların yerində yeni və müasir binaların ucalması firavan və xoşbəxt gələcəkdən xəbər verir və Ağdama uzanan rahat yollar keçmiş məcburi köçkünlərin Böyük Qayıdışında müstəsna əhəmiyyət daşıyır. "Qafqazın Xirosiması" kimi tanınan Ağdam Azərbaycan

Prezidenti İlham Əliyevin təməlini qoyduğu, şəhərsalmanın yeni modelinin tətbiq edildiyi şəhərlərindən birinə çevrilir. Ağdamda çox böyük, yeni və müasir infrastruktur qurulur, yaşayış binaları inşa olunur, məktəblər, xəstəxanalar və digər xidmət sahələri yaradılır. Ağdam demək olar ki, hər gün dəyişir, modern bir şəhərə çevrilir, "ağıllı şəhər" konsepsiyası əsasında qurulur və yaxın gələcəkdə burada yüz min nəfər sakinin yaşayacağı nəzərdə tutulur. Qalib Ali Baş Komandan İlham Əliyevin məharəti və silahlı qüvvələrimizin qəhrəmanlığı sayəsində döyüş meydanında qazanılan parlaq qələbə vasitəçilərin xahişi ilə aparılan danışıqlarda həlledici rol oynadı və Ağdam bir güllə atılmadan əsarətdən azad edildi.

Tarix və müasirlik. Bünövrədən və yenidən tikilən şəhərin əsas cizgiləri belə olacaq. Ağdam canlı muzeyi xatırladırdı, çünki bu qədim diyarın hər daşının altında bir tarix yatır, burada zəngin yataqlar var, ərazisindən üç çay keçir, ecazkar meşələri, soyuq bulaqları ilə məşhurdur. Məni qınamayın, düşmənin viran qoyduğu Ağdamın xarabalıqları da əzəmətli görünür. Qəhrəman ordumuzun bölmələri Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə elə böyük şücaət, misilsiz döyüş peşəkarlığı göstərdilər ki, Azərbaycan ordusu XXI əsrin ordusudur, cəsur, qorxmaz, fədakar, qəhrəman, yenilməz ordudur. Ermənistan bütün havadarlarının köməyinə baxmayaraq, döyüş meydanında məğlub edildi, işğalçının ideoloji və hərbi dayaqları dağıdıldı, düşmən diz çökərək məğlub oldu. Üçtərəfli Bəyanatın şərtlərinə görə, 2020-ci il noyabrın 20-də Ağdam rayonunun işğal olunmuş ərazisindən Ermənistan ordusu çıxarıldı. Ordumuz heç bir itki, şəhid vermədən, bir güllə atılmadan, qan tökülmədən Ağdam rayonunun işğal altındakı hissəsinə daxil oldu. İşğaldan azad ediləndən üç gün sonra, 2020-ci il noyabrın 23-də Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində oldular. Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı və indi bayrağımız orada qürurla dalğalanır. Qalib Ali Baş Komandan Ağdam Cümə məscidinin qarşısında çıxış etdi. Hələ tarixi qələbədən əvvəl, 2020-ci il oktyabrın 26-da Prezident İlham Əliyev xalqa müraciətində ermənilərin torpaqlarımızda törətdikləri vəhşilikləri, dinc yaşayış məntəqələrimizi atəşə tutmasını, mülki əhalinin həlak olmasını dünyanın diqqətinə çatdıraraq sarsılmaz mövqeyini "təki torpağımız azad olsun" sözləri ilə ifadə etdi: "Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!".

## Modern şəhərin cizgiləri

İkinci Qarabağ savaşı nəticəsində ağır məğlubiyyətə uğrayıb ağ bayraq qaldıran və kapitulyasiya aktına qol çəkən Ermənistan rəhbərliyi Ağdam rayonunun Azərbaycana qaytarılması barədə öhdəlik götürdü. 20 noyabr 2020-ci il tarixində Ağdam öz azadlığına qovuşdu. Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam şəhəri müasir şəhərsalmanın ən son modeli əsasında yenidən dirçəlir, düşmənin vurduğu ağır yaralar aradan qaldırılır, bu qədim yurd yeri yenidən qurulur. Dövlət başçısının tapşırığına uyğun olaraq, birləşdirilən kəndlərlə və əhalinin artımı nəzərə alınaraq şəhər 100 min nəfər əhali üçün tikilir. Qeyd edək ki, vaxtilə Ağdam şəhərinin ərazisi 700-800 hektar olub və yeni Baş Plana əsasən şəhərin ərazisi iki dəfə böyüdülür. Bir sözlə, Ağdam erməni vandalizmindən qurtulan və keçmiş və müasirliyi birləşdirən cəlbedici məkana çevriləcək, həm də Azərbaycanın böyük sənaye və turizm şəhərlərindən biri olacaq.

Azərbaycan dövləti burada geniş bir inkişaf planı hazırlayıb. Ağdam şəhəri elə bir layihə ilə qurulur ki, onun dünyada bənzəri olmayacaq. Təbii ki, bütün bunlar məcburi köçkün həyatı yaşamış ağdamlıların böyük sevincinə səbəb olur və arzularına qol-qanad verir. Şəhərin simvollarından biri hesab edilən Ağdam Dram Teatrının binasının qalıqları açıq səma altında muzeydə saxlanılacaq. Binanın qarşısındakı Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasındakı Fərhadın heykəli öz yerinə qaytarılacaq. Şəhərin mərkəzində xarabalıqlar arasında Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaq. İşğal muzeyi Ağdam Cümə məscidinin arxasında viran qoyulmuş sahədə yerləşəcək. Həmin ərazidə olan dağıntılar konservasiya olunacaq və olduğu kimi də saxlanılacaq. Muzey erməni vandallığının və acı işğal tarixinin şahidi olaraq gələcək nəsillərə Ağdamın 30 illik acı taleyindən söhbət açacaq, tarixi həqiqətlərin unudulmasına imkan verməyəcək. Gələcək nəsil, qonaqlar, turistlər oxuduqları, eşitdikləri işğal tarixinin acı həqiqətlərini öz gözləri ilə görə biləcəklər. Şəhərdə həyata keçirilən yenidənqurma işləri düşmənə gözdağıdır. Yeni Ağdamın qurulması və modern şəhərsalma dövlətimizin başçısı İlham Əliyevin diplomatiyasının uğur, müvəffəqiyyət formulunun, qalibiyyət təntənəsinin tərkib hissəsidir.

İşğaldan azad edilmiş ərazilərdə 2022-2026-cı illərdə 34 min 500 ev tikiləcək və 140 minə yaxın əhali doğma yurd yerlərinə köçürüləcək. Bu illər ərzində Ağdam rayonu üzrə 9690 evin və mənzilin tikilməsi, 42361 vətəndaşın köçürülməsi nəzərdə tutulur. Ağdam sürətlə, zövqlə, milli memarlıq üslubunda,

müasir şəhərsalma layihələri əsasında tikilir. Tarixi və müasir cizgiləri əks etdirən bir şəhər gözlərimiz qarşısında addım-addım böyüyür. Prezident İlham Əliyevin göstərişi əsasında tikilən Ağdamda elm, təhsil, muğam ənənələri davam etdiriləcək. Ən əsası isə ağdamlılar bu şəhərin qədim ənənələrini bərpa edəcək, keçmişdəki auranı və ruhu dirçəldəcəklər. Ağdamın Baş Planı təsdiq edilib və burada ilkin mərhələdə 1 şəhər və 12 kəndin bərpası nəzərdə tutulur. Özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik Qarabağ iqtisadi rayonuna daxil olan Ağdamın bərpası və sürətli inkişafı doğrudan da qürurvericidir, bu hər şeydən əvvəl dövlətimizin gücünü göstərir. Yeni Ağdam mühüm nəqliyyat qovşağına çevrilir, Qarabağa və Şərqi Zəngəzura gedən yollar burada birləşir, Ağdamda "ağıllı şəhər" salınır, plana görə şəhərə onun tarixi hüdudlarından başqa 8 kənd də birləşdirilib. Ağdamda 1750 fərdi ev və 23 min mənzilin inşası aparılır. Şəhər sakinlərinin üçdəbiri fərdi evlərdə yaşayacaq. Baş Plana əsasən Ağdam şəhərinin ərazisi 1750 hektar, şəhərətrafı bağlar 2450 hektar olacaq. Həmçinin şəhərdə 15 ədəd məktəb və uşaq bağçasının inşası nəzərdə tutulur. Məktəb və uşaq bağçalarının əhatə dairəsi 500 metr təşkil edir. Bu gün Ağdamda avtomobil yolları, rabitə-kommunikasiya, internet, kabel tv kimi ən müxtəlif layihələr icra edilir.

## Ölkənin ən böyük ikinci sənaye parkı

İşğaldan azad edilmiş şəhər ərazisində Sənaye Parkının inşası uğurla davam etdirilir və artıq istehsal müəssisələrindən bir neçəsi işə salınıb. Ağdamın strateji coğrafi mövqeyi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsinə səbəb olacaq. Ağdamda sənaye parkının yaradılması əhalinin məşğulluğunun təmin olunmasına, qeyri-neft sektorunun inkişafına, rəqabətqabiliyyətli və dayanıqlı iqtisadiyyatın formalaşdırılmasına güclü təkan verəcək. Ağdam Sənaye Parkının təməli qoyulduğu gündən üç il keçməsinə baxmayaraq, burada çox böyük və nəhəng işlər həyata keçirilib. Dövlət başçımızın açılışlarını etdiyi zavodlarda artıq istehsala başlanılıb. Bu müasir istehsal parkında ilkin mərhələdə 6 sənaye müəssisəsi - "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı, "BAFCO İnvest" MMC-nin müxtəlif təyinatlı ayaqqabıların, "Rail Trans Service" MMC-nin avtomatlaşdırma və telemexanika sistemlərinin, "Mister Decor" MMC-nin divar kağızları, "Metkons" MMC-nin havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları və "Prof-Dam" MMC-nin dam örtükləri istehsalını həyata keçirən zavodlar fəaliyyətə başlayıb.

Parkda ümumi investisiyalarının məbləği 238 milyon manatdan çox olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. 33 sahibkarlıq subyekti tərəfindən sənaye parkında ümumilikdə 2090 iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən sənaye parkına 72 milyon manatdan çox investisiya yatırılıb, 300-dən çox daimi iş yeri yaradılıb. Cənubi Qafqazda analoqu olmayacaq sənaye mərkəzi günbəgün böyüyür, inkişaf edir. Ağdamda əhalinin məşğulluğu ilə bağlı heç bir problem olmayacaq. Ağdama köçəcək ailələrin üzvlərinin hansı peşələrə, ixtisaslara sahib olmaları barədə məlumatlar var. Bura köçən insanların bir hissəsi inşaat sektorunda çalışacaq. Əhalinin məşğulluğunun təmin edilməsində Ağdam sənaye parkında yaradılan müəssisələrin böyük rolu olacaq.

## Şəhər Günü

Böyük Qayıdış proqramı çərçivəsində 2026-cı ilin sonunadək Ağdam şəhərinə və ətraf kəndlərə 42 mindən artıq insanın köçürülməsi qarşıya məqsəd qoyulub. Ağdam şəhəri yenidən qurulur, tarixi abidələr bərpa edilir, modern infrastruktur yaradılır. Bura yolu düşənlər şəhər ərazisində təzadlı bir mənzərənin şahid olurlar. Ağdam həm də yaşıl şəhərə çevrilir.

Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə hər il noyabrın 20-də Ağdam Şəhər Günü təntənə ilə qeyd olunur. Kiminlə həmsöhbət olduqsa hər kəsin fikri, düşüncəsi, arzusu, ürək sözü bir nöqtədə, minnətdarlıq duyğusunda birləşdi. Ağdamlılar söylədilər ki, qırx dörd gün davam edən müharibə dövlətimizin gücünü, Silahlı Qüvvələrimizin rəşadətini, xalqımızın birliyini göstərdi. Tarixi qələbədən sonra ağdamlılar keçən hər günü şükranlıqla, minnətdarlıqla, sevgiylə qarşılayır və həsrətimizə, kədərimizə, ayrılığımıza, sinəmizdəki dərd yarasına, göz yaşlarımıza son qoyulduğu üçün çox xoşbəxtik deyirlər. Deyirlər ki, düz 27 il 4 aydan sonra həyatımıza yenidən günəş doğub, Müzəffər Sərkərdə, Qalib Ali Baş Komandan İlham Əliyevin Ağdam rayonunun erməni işğalından azad edilməsi xəbərini verən andan bu günə qədər qəlbimiz qürurla, ürəyimiz həyəcanla, sevinclə çırpınır. İnsanların, şəhərlərin, kəndlərin taleyində çox bayramlar, çox əziz günlər olur. 20 Noyabr Günü Ağdam camaatının, Ağdamın ən əziz günlərindən biri, bəlkə də birincisidir. Bəli, bu gün biz çox qürurluyuq, alnıaçıq, üzüağıq. Bu gün biz 30 il düşmən işğalında qalan torpaqları cəmi 44 gün, 23 saat 43 dəqiqəyə tam azad edən və öz gücü, qəhrəmanlığı

sayəsində suverenliyini tam bərpa edən bir xalqın övladı, qüdrətli ölkənin vətəndaşlarıyıq. Fəxarət hissi keçiririk ki, bizim mərd xalqımız, Müzəffər Ali Baş Komandanımız, yenilməz Ordumuz, güclü dövlətimiz, qüdrətli ölkəmiz - Azərbaycanımız var! 30 ilə yaxın məcburi köçkün həyatı yaşayan Ağdam sakini Adil Behbudov deyir:

- İnanın ki, elə bir gün olmayıb ki, mən Ağdamı unudam, o doğma yerlər gecə-gündüz fikrimdən, xəyalımdan çıxmayıb. Sözün düzü, bəzən ümidlərim azalırdı, öz-özümə deyirdim ki, o yerləri görmədən bu dünyadan köçəcəyəm. Elə o dəqiqə də qəlbimin dərinliyində güclü bir inam baş qaldırırdı ki, möhtərəm Prezidentimiz mütləq bu işğala son qoyacaq. Həmin gün gəldi, 44 gün nəinki, mənim ailəm, minlərlə köçkün ailəsi Allaha dua edirdik ki, ordumuz qələbə çalsın. Qalib Ali Baş Komandan İlham Əliyev Ağdamın işğaldan azad edilməsi xəbərini verdi. Qələbə bizə başqa bir ömür bəxş edib. Yır-yığış edirik ki, Prezidentimiz icazə verən kimi Ağdama qayıdaq.

Həmsöhbətim Nazim Əliyev keçmiş hərbçidir, məcburi köçkün kimi Bərdə rayonunda məskunlaşıb. Minlərlə ağdamlı kimi o da sevinc içindədir, boya-başa çatdığı yerlərə qayıtmaq üçün günləri sanayır. Nazim Əliyev deyir:

- Vətən müharibəsində qazanılan tarixi qələbənin qürurunu yaşayırıq. Möhtərəm Prezidentimiz müharibədən sonra diplomatiyada da ard-arda qələbə qazanır. Prezidentimiz Ağdam şəhərinin təməl daşını qoymaqla çox böyük işlərin başlandığını elan etdi və biz ağdamlıların sevincinin həddi-hüdudu yoxdur. Prezidentimizə, ordumuza minnətdarlığımı bildirir, şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Dünyada ikinci, keçmiş SSRİ-də birinci olan Ağdam Çörək Muzeyinin direktoru (1991-1995-ci illər) Hafis Əliyev doğma şəhəri haqqında həyəcansız danışa bilmir:

- Mənən çox ağır illər yaşadıq, demək olar ki, ermənilər hər gün Ağdamı raket atəşinə tuturdular, evlər dağılır, dinc insanlar həlak olurdular. Ancaq heç kəs evini tərk etmirdi, Ağdamın özünümüdafiə batalyonları erməni hücumlarının qarşısını alırdılar. Şəhər əhalisi, sözün əsl mənasında, işğalçılara qarşı döyüşürdü. Getsin o günlər, bir də gəlməsin. Hər birimizin qəlbində Ağdam ətirli xatirələr var, təbii ki, biz keçmiş şəhəri duyğularımızda yaşadacağıq. İndi yeni və müasir şəhər tikilir, dövlətimizin gücü və iradəsi ilə gündən-günə böyüyən Ağdam bizə sonsuz sevinc bəxş edir. Azad edildikdən sonra doğma şəhərə bir neçə dəfə səfər etmişəm, o xoşbəxt saatlarda duyğularımı sözlə təsəvvür edə bilmirəm. Ayağım torpağına dəyəndə sanki yenidən doğuldum, ruhum təzələndi. Bizə bu şərəfli qayıdışı bəxş edən Ali Baş Komandanımız İlham Əliyevə minnətdarıq! Qəhrəman ordumuzun əsgərindən generalına qədər hamısına təşəkkür edirik! Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda həlak olan bütün şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə cansağlığı arzulayırıq. Sevinirik ki, yeni bir Ağdam görəcəyik, övladlarımız, nəvə-nəticələrimiz müasir bir şəhərdə yaşayacaq. Bundan böyük xoşbəxtlik ola bilməz, möhtərəm Prezidentimizə daha böyük qələbələr arzulayırıq, bizi Vətənə qaytardığınız üçün çox sağ olun, cənab Prezident!

Yeni şəhərin üfüqləri artıq uzaqdan baxanda aydın görünür. Ağdamın tikilməsi insanlara yeni bir həyat, yeni arzular, firavan yaşamaq ruhu bəxş edib. Ağdamda tarix və müasirlik qovuşur, ümid, inam bütövləşir, arzular qol-qanad açır. Ağdamlılar doğma şəhərə qayıdacaqları günləri səbirsizliklə, həyəcanla, ümidlə, inamla gözləyirlər...